XALQ QƏZETİ 9 dekabr 2020-ci il, çərşənbə



# Ankarada Azərbaycana həsr olunmuş zəfər sərgisi açıldı



❒ ***Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən Ankara Opera və Balet Teatrında zəfər sərgisi təşkil edilib.***

Sərginin təşkilində məqsəd Azərbaycan həqiqətlərini nümayiş etdirməkdir. Sərgidə noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş Ağdam şəhərinə səfərlərini, eləcə də, Ağdam məscidini ziyarətlərini, həmçinin Qarabağda doğulmuş görkəmli şəxsiyyətlərimizin, Azərbaycanın tarixi yerlərinin füsunkar təbiətini əks etdirən fotolar nümayiş olunur.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***